# Necə də xoşbəxt idik...

### YALNIZLIĞIN QIŞI

Payız qapını döyür,
Yağış pəncərələri.
Sən də gəl, xəzəl adam,
Qapımdan gir içəri...

Hələ payızdı, çıx gəl,
Hələ ki var ölümə.
Hələ ki ayrılığı
Gətirmirəm dilimə.

Hələ bu yalnızlığın,
Qış adlı gerçəyi var.
Mən donanda qucağın
Kimə yuva oldu, yar?

Burdan qışa nə qaldı? -
Bir-iki çiçək ömrüm.
Ləçək-ləçək tökülüb,
Sona yetəcək ömrüm.

Məndən geriyə qalan -
Şeirlər sətir-sətir.
Bir də çiçəkli donda
Yasəmən qoxan ətir.

### AYRILIQ ŞƏRQİSİ

Burda bütün şərqilər,
Ayrılıqdan danışar.
Saralar təqvimlər də,
Fəsillərlə yarışar.

O da səndən uzaqda,
Göy qurşağın izləyər.
Səninsə buz əllərin,
İsti nəfəs gözləyər.

Köz salar ürəyinə,
Orda onun istisi.
Dolar ciyərlərinə,
Ürəyinin tüstüsü.

Heyf, olmadı qismət, -
Deyərsən öz-özünə.
Gözlərin ta bir ömür,
Su daşıyar közünə.

### KEÇSSR

Min illik ağrılarım,
Səngiməz, gecə keçər.
Ay dolanar, il ötər,
Bu ömür heçə keçər.

Qoparıb izlərimdən,
Asarlar sözlərimdən.
Xəyalın gözlərimdən,
Gəlib gizlicə keçər.

Sevdalar quşa dönsə,
Tək gedib, qoşa dönsə,
Qayıdıb başa dönsə,
Bu ömür necə keçər?

Bir vəfasız uğruna,
Daş bağladım bağrıma.
Qurban olum ağrıma,
Keçər, beləcə, keçər...

### SSSNSİZ

Sənsiz yadların doğması,
Doğmaların yadıyam.
Sənsiz ünvansız evlərin,
Küçələrin adıyam.

Sənsiz, qara məktub alan
Ananın göz yaşıyam.
Sənsiz adsız məzarların,
Şəkilsiz baş daşıyam.

Sənsiz əsalı qocayam,
Yuxusuz körpə uşaq.
Sənsiz səninlə doluyam -
Xatirən qucaq-qucaq.

Sənsiz sahilsiz dənizəm,
Bir limansız gəmiyəm.
Sənsiz səfil, avarayam,
Kimsəsizlər kimiyəm.

### YALVARIŞ...

Bir günah, bir sirr kimi
Gizlədir səni ürək.
Ovucumun içində
Şüşə kəsikləri tək

Bu sevinci, bu dərdi
Yaşamaq mənə haram.
İynənin ucu boyda
İşığa həsrət koram.

Mən bu dilsiz ağrını,
İçimdə susdururam.
Nə ki ümidlərim var,
Göylərdə basdırıram.

Qurtar məni, İlahi,
Qurtar bu qara bəxtin
Tikanlı yollarından.
Qaranlıq taleyimin,
Dibsiz quyularından.

### RUHUM YANIR

Bu evin divarları
Min ildir ki danışmır
Qapının dəstəyi də
Heç bir əllə barışmır

Uzanan yola baxır
Darıxan pəncərələr
Gözümün kökü kimi
Saralıb ağ pərdələr

Divardakı saatın
Sanki nəbzi dayanıb
Hər küncdə bir xatirə
Ruhumu əsir alıb.

Boş qalmış çərçivədən
Hüznün şəkli boylanır
Gəl bir udumluq su ol
Bu evdə ruhum yanır

### BURDA UNUTMAQ SSSNİ...

Burda unutmaq səni -
Dörd mövsüm payız kimi.
Yavaş-yavaş yox olmaq,
Unutduğun qız kimi.

Burda darıxmaq sənə -
Qəfəsdə bülbül olmaq.
Yanıb pərvanələrtək,
Öz oduna kül olmaq.

Burda gözləmək səni -
Gəmilər gələn yerdə.
Həzin bir yaz gecəsi,
Lövbəri salan yerdə.

Burda qovuşmaq sənə -
Əzəmətli dağ olmaq.
Calanıb köklərinə,
Dönüb min budaq olmaq.

Burda qarışmaq sənə -
Ev olmaq, vətən olmaq.
Dönüb günəşə, aya,
Aydınlığa tən olmaq.



### SÖNƏN OCAQLAR

Yerdə yanan ağacların ahından,
Alov aldı səmada buludları.
Bundan sonra yuvası yox, səsi yox,
Külə döndü quşların qanadları.

Yandı bütün yaşıl-yaşıl arzular,
Bu atəşin közündə, ocağında.
Kəpənəklər, qarışqalar, böcəklər,
Bala dovşan ananın qucağında.

Ocaq, ocaq söndürərmiş, öyrəndik.
Tüstü udan səmalar boşaldımı?
Bir bulud da dolmadı ki, ağlaya,
Tanrı, sənin gözlərin yaşardımı?

### ÖLSSSM BAĞIŞLA...

Üstünü toz basar xatirələrin,
Ömrünün qaranlıq pillələrində.
Keçən günlər solmuş şəkillər kimi,
Yaddan çıxar albom vərəqlərində.

Ağaran saçını sovurar külək,
Qalar baxışların çox uzaqlarda.
Göz yaşın asılar kirpiklərindən,
Buz kəsər əllərin bu sazaqlarda.

Sən də qoşularsan bu karvanlara,
Kəsərsən salamı dostla, tanışla.
Bir məzar daşının "qulaqlarına",
Pıçıldayarsan ki, "ölsəm, bağışla".

### BİZİ BAĞIŞLA, VSSTSSN

Bir payız yarpağına sığacaq qədərmiş həyat,
Qatarın arxasınca əl yelləmək kimiymiş
keçən hər saat.
Biz isə palçıqdan adam düzəldən uşaqlar idik...
Nə tez böyüdük...

Dünya nənəmin nağıllarındakı kimiydi, -
Cırtdan da biz, div də biz...
Necə də xoşbəx idik bu qapısız,
bu tavansız evdə biz...

Sonra buludlar sancılandı,
Güllələr doğuldu.
Gözünü qan bürümüş oğullara
tuşlanan mərmilər,
Dağ boyda kişiləri, qum saatındakı
torpağa çevirdilər...
Və biz islanmamaq üçün
sığındıq qapısı bağlı tavanlı evlərə...

Bizi bağışla vətən,
Bizi şəhidlərin qanına,
Balıqların yaddaşına bağışla...

. . .

İllər asılır ayların ayaqlarından,
Sənsiz keçən günlər bir-bir düşür
Saralmış yarpaq kimi,
təqvim varaqlarından...

Dərdi dərd çəkən anlar,
Sözsüz eşidən anlar.
Bir əbədi dostun olar dünyada -
Üzünə şax baxdığın tək həqiqət - aynalar...

İndi iki əlim, bir başım,
Keçən günə peşmanam.
Gələr, - deyib çox yol çəkdi gözlərim,
İnsanam, ey, insanam...

İndi köhnə şəkillərdə
gülümsəyir adamlar.
İndi bu yarımçıq ömrümü
O şəkillər tamamlar....

Mənim bütün şeirlərim
ürəyimdən su içir.
Özümdən qaçdığım yollar da
gəlib alnımdan keçir...

### ÜMİD

Pıçıltılarımız gecənin səssizliyini pozanda,
Rüzgar əllərimdən əvvəl saçlarını oxşayanda,
Qəfil yağış yağanda o səssiz küçədə
Və gözlərin baxanda mənə dərin-dərin,
Bilirdim...
Bilirdim ki, qısa olur ömrü xoşbəxtliklərin...

Mən payızdanqalma son yarpaq kimi
sovrularkən havada,
Yox olmağa məhkum ikən
yerlə göy arasında,
Sən, qışdan çıxmış tumurcuq misalı,
ümidə bənzəyirdin.

İndi sənin var olduğun uzaqların adıdır,
burdakı yoxluğun...
İndi bu şaxtalı fevral gecəsində,
üşüdür soyuqluğun...

***2021***



***Əsmər HÜSEYNXAN***